Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası" haqqında 6 sentyabr 2010-cu il tarixli, 163 nömrəli qərarını elan edirəm:

**№ 163**

**Bakı şəhəri, 6 sentyabr 2010-cu il**

**"Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında**

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli, 156 nömrəli Fərmanının 1.16-cı bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***A.RASİZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***

Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası" haqqında 6 sentyabr 2010-cu il tarixli, 163 nömrəli qərarının icrasını təmin etmək məqsədilə

**ƏMR EDİRƏM:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası" haqqında 6 sentyabr 2010-cu il tarixli, 163 nömrəli qərarı rəhbərlik və icra üçün əsas götürülsün.

2. Ali, orta ixtisas və əlavə təhsil müəssisələri:

2.1. Bu qərarın məzmunu və onun tətbiq edilməsi barədə kollektivlərdə müvafiq izahat işi aparsınlar.

2.2. Əlavə təhsilin ayrı-ayrı istiqamətləri üzrə fəaliyyətlərinin bu qərara uyğun həyata keçirilməsini təmin etsinlər.

2.3. Əlavə təhsilin ayrı-ayrı istiqamətləri üzrə müvafiq təhsil proqramları hazırlayıb qiymətləndirilmək üçün Təhsil Nazirliyinə təqdim etsinlər.

3. Aparatın rəhbəri (İ.Pirməmmədov), Ali və orta ixtisas təhsili şöbəsi (İ.Mustafayev), Strateji təhlil, planlaşdırma və kadrların idarəolunması şöbəsi (F.Qədirov):

3.1. Əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil prosesinin təşkili ilə bağlı tələb edilən yeni reqlamentləşdirici sənədlərin işlənib hazırlanmasını təmin etsinlər.

3.2. Əlavə təhsil müəssisələrində keyfiyyətə nəzarətin təmin olunması məqsədi ilə monitorinq və qiymətləndirmə mexanizminin yaradılmasını təmin etsinlər.

3.3. Əlavə təhsilin ayrı-ayrı istiqamətləri üzrə təhsil proqramlarının qiymətləndirilməsi mexanizmlərini müəyyənləşdirsinlər, bu məqsədlə müvafiq Qiymətləndirmə Şurasının yaradılmasına dair təklif hazırlayıb təqdim etsinlər.

3.4. Hər il müvafiq vaxtlarda əlavə təhsilin ayrı-ayrı istiqamətləri üzrə təhsil proqramlarının qiymətləndirilməsi üçün qəbul elanlarının verilməsini, qiymətləndirilmiş proqramlar haqqında məlumatların vaxtında Nazirliyin saytında yerləşdirilməsini təmin etsinlər.

4. Təhsil Nazirliyinin İnzibati işlər üzrə sektor müdiri (A.Nəbiyev) əmrin çoxaldılaraq bütün rayon (şəhər) təhsil şöbələrinə, ali, orta ixtisas və əlavə təhsil müəssisələrinə çatdırılmasını təmin etsin.

5. İctimaiyyətlə əlaqə şöbəsi (B.Hüseynzadə) bu əmrin "Azərbaycan müəllimi" qəzetində və "Təhsil xəbərləri" məlumat-informasiya məcmuəsində dərc edilməsini təmin etsin.

6. Əmrin icrasına nəzarəti öz üzərimə götürürəm.

***Misir MƏRDANOV,***
***Azərbaycan Respublikasının təhsil naziri***
***4 oktyabr 2010-cu il***